Azadlıq Radiosu

ELM VƏ TEXNOLOGİYA

# 'Anthropic' əməkdaşları: Süni intellekt şirkətləri həyatımızla oynayır

indicə




Süni intellekt

ABŞ-nin süni intellekt modelləri hazırlayan "Anthropic" şirkətinin əməkdaşı **Ceykob Kokson** işdən çıxıb və qərarının səbəblərini X sosial şəbəkəsində izah edib. Yazdığına görə, "**Anthropic" və əvvəllər çalışdığı "OpenAI" şirkəti "öz-özünü təkmilləşdirən superintellektə doğru sürətlə irəliləyərək həyatımızla oynayır".**

Kokson deyir ki, qızğın rəqabət aparan şirkətlər süni intellektin inkişafı zamanı təhlükəsizlik tədbirlərini unudurlar. Onun iddiasına görə, süni intellekt tərtibatçıları bu texnologiyanın onilliyin sonunadək bəşəriyyəti məhv edə biləcəyinə tam əmindirlər.




"Anthropic"də süni intellekt təhlükəsizliyi üzrə əsas mütəxəssislərdən olan **Evan Habinqer** elə sosial şəbəkədə keçmiş həmkarının yazdığına reaksiya verib. Habinqer yazıb ki, şirkətdə süni intellektin bütün insanları öldürə biləcəyinə gerçəkdən inanırlar.

O, şəxsi fikrini də bölüşüb, belə bir ssenarinin yaxın 10 ildə başvermə ehtimalının 10 faizdən çox olduğunu bildirib. Habinqerin dediyinə görə, şirkət mövcud riskləri dərk etsə də, insanların superzəka üzərində nəzarəti necə qoruyub saxlayacağına dair hələ də dəqiq planı yoxdur. Söhbət öz-özünü təkmilləşdirən və qərar qəbul edərkən insanların əmrlərinə tabe olmayan süni intellektdən gedir.


Evan Hubinger
@EvanHub · Follow

Jacob is correct here—we really do earnestly believe AI could kill all humans! I personally think it is >10% within the next decade. I believe Anthropic is trying its best, but we do not yet have a plan to solve alignment for superintelligence and are not clearly on track to.

Jacob Coxon @hilbertspaess
Replying to @hilbertspaess
The people building AI earnestly believe that it could kill us all by the end of the decade. This is not a marketing stunt. If anything, many executives and senior researchers will couch their phrasing in the press to sound sensible - but I hear the same people express fear

1:27 AM · Sep 9, 2026

37.1K Reply Copy link

Read 3K replies

Şirkəti "Grok" süni intellekt modelini hazırlayan **İlon Mask** 2023-cü ildə deyirdi ki, süni intellektin bəşəriyyəti məhv etməsi ehtimalı sıfırdan yuxarıdır.

Ötən həftə ABŞ senatoru **Berni Sanders** şirkətlərin superintellekt hazırlamasını yasaqlayan qanun layihəsi təqdim edəcəyini açıqlayıb.

Həm "OpenAI", həm də "Anthropic" bu yaxınlarda yaydıqları hesabatlarda öz süni intellekt agentlərinin test mühitindən kənara çıxaraq özbaşına real kiberhücumlar törətdiyi barədə məlumatları təsdiqləyiblər.

## Buna da bax:

Süni intellekt hansı peşələri yox edəcək?

Süni intellekt susuz qoyanda: Kaliforniya şəhərində data mərkəzləri səsvermə ilə qadağan edildi

BMT-dən xəbərdarlıq: Süni intellekt bəşəriyyətin mövcudluğuna təhlükə yarada bilər

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur